# “AzerGold” QSC-nin 2019-cu il üzrə maliyyə nəticələri

“AzerGold” QSC-in 2019-cu il üzrə maliyyə hesabatlarına kənar auditor olaraq “Baker Tilly Azerbaijan” QSC rəy vermişdir. Auditorun Cəmiyyətin maliyyə hesabatı barədə rəyi müsbətdir. Ölkəmiz üçün, xüsusən də regionların sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edən sahədə - dağ-mədən sahəsində fəaliyyət göstərən “AzerGold” QSC-in fəaliyyətində bir sıra aspektlər üzrə müsbət tendensiyalar müşaiyət edilir.

**Cəmiyyətin satış gəlirləri 48% artıb.**

2018 – ci ildə “AzerGold” QSC-nin satışları 58 369 947 ABŞ dolları olduğu halda, 2019 – cu il üçün bu rəqəm 27 798 421 ABŞ dolları (və ya 48%) artaraq 86 168 368 ABŞ dolları təşkil edib.

Satış gəlirlərinin artmasının əsas səbəbi 2018-ci ilə nisbətdə 2019-cu ildə həm qiymətlilərin (qızıl və gümüş) satış həcmlərinin daha artıq olması, həm də ki, dünya bazarlarında qiymətlilərin ortalama satış qiymətlərinin daha yüksək olmasıdır.

**Cəmiyyətin Ümumi mənfəəti, Ümumi mənfəət marjası, Xalis mənfəəti və EBITDA artıb.**

Ümumi mənfəətin, ümumi mənfəət marjasının, xalis mənfəətin və EBITDA (faiz, vergi və amortizasiya xərcləri çıxılmazdan əvvəlki əməliyyat mənfəəti) artmasının əsas səbəbləri hasilatın və bunun sayəsində satış həcminin artması, orta qiymətin yüksək olması və satış gəlirlərinin artımının satışın maya dəyərinin artımı ilə müqayisədə 4.7% çox olmasıdır.

Cəmiyyətin ümumi mənfəəti 2018 – ci ildəki 19 383 450 ABŞ dolları ilə müqayisədə 11 077 804 ABŞ dolları (və ya 57%) artaraq 2019 – cu ildə 30 461 254 ABŞ dollarınadək yüksəlib. Ümumi mənfəətin (satışdan gəlirlərlə satışın maya dəyəri arasında olan fərq) satışdan gəlirlərə olan nisbəti ilə hesablanan ümumi mənfəət marjası 2018 – ci ildə 33% idisə, 2019 – cu ildə bu göstərici 35% təşkil edib.

Cəmiyyətin xalis mənfəəti isə 2018 – ci ildəki 8 040 940 ABŞ dolları ilə müqayisədə 4 405 224 ABŞ dolları (və ya 55%) artaraq 2019 – cu ildə 12 446 164 ABŞ dollarınadək yüksəlib. Cəmiyyət 2018 – ci ili 32 276 699 ABŞ dolları EBITDA ilə başa vurmuşdusa, 2019 – cu ildə bu göstərici 36% artaraq 43 876 416 ABŞ dolları olub.

**Cəmiyyətin pul vəsaitləri artıb.**

Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentləri 2018 – ci ildəki 4 707 563 ABŞ dolları ilə müqayisədə 12 429 646 ABŞ dolları (və ya 264%) artaraq 2019 – cu ildə 17 137 209 ABŞ dollarınadək yüksəlib.

**Cəmiyyətin kapitalı artıb.**

Cəmiyyətin ümumi kapitalı 2018 – ci ildə 9 243 471 ABŞ dolları təşkil etdiyi halda, 2019-cu ildə bu göstərici 18 328 517 ABŞ dolları (və ya 198%) artaraq 27 571 988 ABŞ dolları təşkil edib.

Ümumi kapitalın artması cari ilin xalis mənfəəti (12 446 164 ABŞ dolları) hesabına, habelə dövlət tərəfindən 5,882,353 ABŞ dolları (10 milyon manat həcmində) nizamnamə kapitalının artırılmasına əsaslanır. 2019-cu ilin sonuna Cəmiyyətin səhm kapitalı 7,178,953 ABŞ dolları olmuşdur (2018-ci ildə 1,296,600 ABŞ dolları).

**Aktivlərdən səmərəli istifadə edilib.**

Aktivlərin gəlirlilik indikatoru (ROA - Return on Assets), dövr üzrə xalis mənfəətin cəmi aktivlərə olan nisbəti ilə hesablanır. Bu indikator şirkətin ümumi aktivlərinə nisbətən nə qədər qazanclı olduğunun göstəricisidir. Bu nisbət nə qədər yüksək olarsa, deməli aktivlər bir o qədər daha səmərəli şəkildə idarə olunur və müəssisə mövcud resurslardan optimal səviyyədə mənfəət əldə edir. Aktivlərin gəlirlilik indikatoru 2019-cu ildə artaraq 11% olmuşdur (2018-ci ildə 7%).

**Borc/Kapital nisbəti əhəmiyyətli dərəcədə azalıb.**

Diqqəti cəlb edən müsbət məqamlardan biri də, Cəmiyyətin borc / kapital nisbətinin əhəmiyyətli dərəcədə azalmasıdır. Mənfəətin əldə edilməsi və nağd vəsaitlərin daxilolması ilə bu göstərici 2018 – ci ildə 10.13, 2019 – cu ildə isə 2.63 səviyyəsinə qədər enib. Eyni zamanda qeyd edilməlidir ki, 2019 – cu ildə Cəmiyyətin qazandığı mənfəətlə yanaşı, Nizamnamə kapitalının 5,882,353 ABŞ dolları artırılması, habelə pul siyasətinin səmərəli idarəolunması nəticəsində kredit öhdəliklərinin zamanında qarşılanması, borc / kapital nisbətinin azalmasını şərtləndirib. Cəmiyyətin nağd vəsaitlərini də nəzərə alaraq hesablamalar aparıldıqda isə, nisbət 2.01 səviyyəsinə qədər enir.

**Faizlər üzrə ödəniş təminatı əmsalı artıb.**

Bu indikator biznesin mövcud faiz borcunu ödəmə qabiliyyətinin göstəricisi olub, faiz və vergilər çıxılmadan əvvəlki mənfəətin (EBIT) dövr üçün hesablanmış faiz xərclərinə olan nisbəti ilə hesablanır.

Cəmiyyətin faizlər üzrə ödəniş təminatı əmsalı 2018 – ci ildə 3.42 idisə, 2019 – cu ildə daha da artaraq 5.01 olub. Bu komponenti şərtləndirən əsas səbəblər - kredit

öhdəliklərinin azalması ilə faiz öhdəliklərinin enməsi, habelə likvidlik pozisiyasının stabil qalmasıdır.

.

| İNDİKATORLAR | 2018 | 2019 | FƏRQ, 18/19 USD | | % |
|---|---|---|---|---|---|
| Satışdan Gəlirlər | 58,369,947 | 86,168,368 | 27,798,421 | ▲ | 48% |
| Ümumi Mənfəət | 19,383,450 | 30,461,254 | 11,077,804 | ▲ | 57% |
| EBITDA | 32,276,699 | 43,876,416 | 11,599,717 | ▲ | 36% |
| Xalis Mənfəət | 8,040,940 | 12,446,164 | 4,405,224 | ▲ | 55% |
| Cəmi Kapital | 9,243,471 | 27,571,988 | 18,328,517 | ▲ | 198% |

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyi və Müşahidə Şurası:

***Rəy***

Biz "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2019-cu il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və Müşahidə Şurasının Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Müşahidə Şurası Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz hazırlanmış maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz Müşahidə Şurasına digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

19 May 2020-ci il
Bakı, Azərbaycan Respublikası

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2019-CU İL TARİXİNƏ
*(Əksi göstərilmədiyi halda, ABŞ dolları ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 7 | 45,484,442 | 61,725,441 |
| Kəşfiyyat və qiymətləndirmə xarakterli aktivlər | 8 | 11,973,605 | 6,203,090 |
| Əmlak, tikili və avadanlıqlar | 9 | 21,756,421 | 19,830,577 |
| Avans ödənişləri | 10 | 25,758 | 108,161 |
| Təxirə salınmış vergi aktivləri | 11 | 2,112,475 | 2,246,648 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **81,352,701** | **90,113,917** |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 17,137,209 | 4,707,563 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 13 | 10,138 | 11,996 |
| Avans ödənişləri | 10 | 1,304,781 | 523,347 |
| Mal-material ehtiyatları | 14 | 7,799,301 | 13,563,756 |
| Digər cari aktivlər | 15 | 2,584,481 | 1,862,749 |
| **Cəmi cari aktivlər** | | **28,835,910** | **20,669,411** |
| **CƏMİ AKTİVLƏR** | | **110,188,611** | **110,783,328** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL:** | | | |
| Səhm kapitalı | 16 | 7,178,953 | 1,296,600 |
| Bölüşdürülməmiş mənfəət | | 20,393,035 | 7,946,871 |
| **Cəmi kapital** | | **27,571,988** | **9,243,471** |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Borc alınmış vəsaitlər | 17 | 36,988,887 | 72,488,229 |
| Ətraf mühitin bərpası üzrə öhdəlik | 18 | 5,349,557 | 4,438,323 |
| İcarə öhdəliyi | 19 | 1,325,819 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **43,664,263** | **76,926,552** |
| **Cari öhdəliklər** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 20 | 2,655,391 | 3,219,791 |
| İcarə öhdəliyi | 19 | 408,389 | - |
| Borc alınmış vəsaitlər | 17 | 35,556,814 | 21,165,684 |
| Digər cari öhdəliklər | 21 | 331,766 | 227,830 |
| **Cəmi cari öhdəliklər** | | **38,952,360** | **24,613,305** |
| **Cəmi öhdəliklər** | | **82,616,623** | **101,539,857** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **110,188,611** | **110,783,328** |

**İdarə Heyəti tərəfindən:**

**Zakir İbrahimov**
**İdarə Heyətinin sədri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

**Anar Mansurov**
**Maliyyə şöbəsinin müdiri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-59-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2019-CU İL TARİXİNƏ
*(Əksi göstərilmədiyi halda, ABŞ dolları ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Gəlirlər | 22 | 86.168.368 | 58.369.947 |
| Satışların maya dəyəri | 23 | (55.707.114) | (38.986.497) |
| **Ümumi gəlirlər** | | **30.461.254** | **19.383.450** |
| Dəyərsizləşmə zərərləri | 7, 8 | (5.695.123) | (1.582.754) |
| Digər əməliyyat xərcləri | 24 | (665.206) | (281.457) |
| Ümumi və inzibati xərclər | 25 | (4.898.593) | (3.765.102) |
| Digər (xərclər)/gəlirlər | | (344.133) | 313.334 |
| **Əməliyyat gəlirləri** | | **18.858.199** | **14.067.471** |
| Maliyyə xərcləri | 26 | (3.765.987) | (4.118.147) |
| **Mənfəət vergisindən əvvəl gəlirlər** | | **15.092.212** | **9.949.324** |
| Mənfəət vergisi xərci | 11 | (2.646.048) | (1.908.384) |
| **İl üzrə mənfəət** | | **12.446.164** | **8.040.940** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **12.446.164** | **8.040.940** |

**İdarə Heyəti tərəfindən:**

**Zakir İbrahimov**
**İdarə Heyətinin sədri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

**Anar Mansurov**
**Maliyyə şöbəsinin müdiri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-59-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2019-CU İL TARİXİNƏ
*(Əksi göstərilmədiyi halda, ABŞ dolları ilə)*

| | Qeydlər | Səhm kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2018-ci il** | | **1,296,600** | **(94,069)** | **1,202,531** |
| İl üzrə cəmi məcmu gəlir | | - | 8,040,940 | 8,040,940 |
| **31 dekabr 2018-ci il** | | **1,296,600** | **7,946,871** | **9,243,471** |
| Səhm kapitalında artım | | 5,882,353 | - | 5,882,353 |
| İl üzrə cəmi məcmu gəlir | | - | 12,446,164 | 12,446,164 |
| **31 dekabr 2019-cu il** | | **7,178,953** | **20,393,035** | **27,571,988** |

**İdarə Heyəti tərəfindən:**

**Zakir İbrahimov**
**İdarə Heyətinin sədri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

**Anar Mansurov**
**Maliyyə şöbəsinin müdiri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-59-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2019-CU İL TARİXİNƏ
*(Əksi göstərilmədiyi halda, ABŞ dolları ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Mənfəət vergisindən əvvəl gəlirlər | | 15,092,212 | 9,949,324 |
| Mənfəət vergisindən əvvəl gəlirlər ilə xalis pul vəsaitlərinin hərəkətinin üzləşdirilməsinə dair düzəlişlər: | | | |
| Maliyyə xərcləri | 26 | 3,765,987 | 4,118,147 |
| Əmlak, tikili və avadanlıqların amortizasiyası və tükənməsi | 23, 25 | 13,551,623 | 6,429,356 |
| Qeyri-maddi aktivlərin amortizasiyası və tükənməsi | 23, 25 | 11,466,594 | 11,779,872 |
| Dəyərsizləşmə zərərləri | 7, 8 | 5,695,123 | 1,582,754 |
| Digər nağdsız əməliyyatlar | | 134 | 804 |
| **Dövriyyə kapitalında dəyişikliklərindən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **49,571,673** | **33,860,257** |
| Əməliyyat aktivləri və öhdəlikləri üzrə dəyişikliklər: | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 1,858 | 115,736 |
| Avans ödənişləri | | (781,434) | 521,999 |
| Mal-material ehtiyatları | | 6,952,812 | (1,246,161) |
| Digər cari aktivlər | | (3,233,607) | (2,469,951) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | | 88,973 | 401,236 |
| Digər cari öhdəliklər | | 103,936 | (665,043) |
| Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti | | 52,704,211 | 30,518,073 |
| Ödənilmiş mənfəət vergisi | | - | (500,000) |
| **Əməliyyat fəaliyyətindən yaranan xalis pul vəsaitləri** | | **52,704,211** | **30,018,073** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Əmlak, tikili və avadanlıqlar və mədənlərin işlənilməsi üzrə məsrəflər | | (13,909,522) | (3,272,642) |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri üzrə investisiyalar | | (7,117,318) | (5,537,819) |
| Digər qeyri-maddi aktivlər üzrə investisiyalar | | (89,109) | (242,909) |
| Əvvəlki podratçılardan aktivlər qrupunun alınması | | - | (700,000) |
| **İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(21,115,949)** | **(9,753,370)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Səhm kapitalında artım üzrə daxilolmalar | | 5,882,353 | - |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 17 | - | 8,200,000 |
| Borc alınmış vəsaitlərin geri ödənilməsi | 17 | (21,081,034) | (24,730,847) |
| Ödənilmiş faizlər | 17 | (3,482,178) | (3,998,427) |
| İcarə öhdəliyi üçün faiz ödənişi | 19 | (85,076) | - |
| İcarə öhdəliyi üçün əsas məbləğ ödənişi | 19 | (392,681) | - |
| **Maliyyə fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(19,158,616)** | **(20,529,274)** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2019-CU İL TARİXİNƏ (Davamı)**
*(Əksi göstərilmədiyi halda, ABŞ dolları ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTMA (AZALMA) | | 12,429,646 | (264,571) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 12 | 4,707,563 | 4,972,134 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 12 | 17,137,209 | 4,707,563 |

**İdarə Heyəti tərəfindən:**

**Zakir İbrahimov**
**İdarə Heyətinin sədri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

**Anar Mansurov**
**Maliyyə şöbəsinin müdiri**

19 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-59-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.